


İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ
KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

İyun - 2018

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# “BİZ ARTIQ HƏRBİ MƏHSULLARIMIZI DA İXRAC ETMƏYƏ BAŞLAMIŞIQ”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının
100 illik yubileyi münasibətilə 2018-ci il 26 iyun tarixində
Bakının Azadlıq meydanında keçirilən
təntənəli hərbi paraddakı nitqindən



“Müstəqilliyimizin ilk illərində nizami ordu yaradılmamışdı. Ayrı-ayrı silahlı birləşmələr Azərbaycanın ərazi bütövlüyünü qoruya bilməmişlər. Ona görə, Ulu Öndər tərəfindən qəbul edilmiş bir çox önəmli qərarlar arasında nizami ordunun yaradılması qərarı xüsusi yer tutur. Nizami ordunu yaratmaq üçün iqtisadi imkanlar olmalı idi. Məhz buna görə, o illərdə Azərbaycanda çox ciddi iqtisadi islahatlar aparılmışdır, xarici sərmayənin cəlb olunması təmin edilmişdir, Azərbaycan beynəlxalq təcriddən çıxa bilmişdir. Ölkədə aparılan siyasi, iqtisadi islahatlar vəziyyəti sabitləşdirdi və Azərbaycan 1993-cü ildən sonra inkişaf və tərəqqi yolu ilə gedir. Bu siyasət bu gün də davam etdirilir. 1993-2003-cü illər sabitlik və inkişaf illəri kimi tariximizdə qalmışdır...

Ordumuz ən müasir silahlarla, texnika ilə təchiz edilmişdir. O cümlədən Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Bizim təşəbbüsümüzlə son illər ərzində 20-dən çox hərbi zavod yaradılmışdır. Bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir. Eyni zamanda, biz artıq hərbi məhsullarımızı da ixrac etməyə başlamışıq. Həmçinin Azərbaycan bir çox ölkələrdən ən müasir silah və texnika alır. Bu gün bu silahların kiçik bir hissəsi paradda nümayiş etdiriləcək”.

# MÜNDƏRİCAT


1 Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

2 Qeyri-neft sektoru üzrə əsas ixracatçı şirkətlərin reytinqi — səh. 11

3 Azexport.az portalına 2018-ci ilin yanvar-may aylarında 250,2 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — səh. 17

4 İxrac təşviqi verilən malların siyahısı genişləndirilmişdir — səh. 21

5 Qida Təhlükəsizliyi Agentliyi "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində fəaliyyətə başlamışdır — səh. 22

6 Ukraynada Azərbaycan Ticarət Evi açılmışdır — səh. 26

7 İsveçrəyə ixrac missiyası təşkil olunmuşdur — səh. 27

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2018-ci ilin **YANVAR-MAY AYLARINDA** qeyri-neft sektoru üzrə **667,5** milyon ABŞ dolları dəyərində **İXRAC OLMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **112** milyon ABŞ dolları və ya **20%** **ARTMIŞDIR**

Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə ixracda dinamik inkişaf müşahidə olunur. Belə ki, 2018-ci ilin yanvar-may ayları ərzində qeyri-neft sektoru üzrə ixrac **667,5 milyon** ABŞ dolları təşkil etmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-may aylarında qeyri-neft sektoru üzrə ixrac **112 milyon** ABŞ dolları və ya **20 faiz** artmışdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən cari ilin ilk 5 ayı ərzində Rusiyaya **223,2 milyon**, Türkiyəyə **154,3 milyon**, Gürcüstana **65,9 milyon**, İsveçrəyə **56,5 milyon** və Çinə **19,1 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilmişdir.

2018-ci ilin yanvar-may ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısına pomidor (96,8 milyon ABŞ dolları) başçılıq etmişdir. Bu siyahıda elektrik enerjisi (53,3 milyon ABŞ dolları) ikinci və qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 48,4 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Qeyd edilənlərlə yanaşı yanvar-may aylarında xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, qabığı təmizlənmiş meşə fındığı, pambıq lifi (daranmaya məruz qalmamış), emal olunmamış aşqarlanmamış alüminium, kartof, xurma və digər məhsullar da qeyri-neft ixracında mühüm paya sahib olmuşlar.

Ümumiyyətlə, yanvar-may ayları ərzində meyvə-tərəvəz ixracı **189,8 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **59 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **58 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **28,3 milyon**, kimya sənayesi məhsullarının ixracı **23,7 milyon**, pambıq ipliyi ixracı **7,6 milyon** ABŞ dolları təşkil etmişdir.

Qeyd edək ki, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin ilk 5 ayında elektrik enerjisinin ixracı **3,2 dəfə**, meyvə-tərəvəzin ixracı **23,3 faiz**, alüminium və ondan hazırlanan məmulatların ixracı **20,4 faiz**, pambıq ipliyinin ixracı **15 faiz**, kimya sənayesi məhsullarının ixracı **11,4 faiz** artmışdır.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən cari ilin may ayında isə qeyri-neft sektoru üzrə ixrac **182 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin may ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya (87,8 milyon ABŞ dolları), Türkiyə (27,1 milyon ABŞ dolları), İsveçrə (16,9 milyon ABŞ dolları), Gürcüstan (13,5 milyon ABŞ dolları) və Niderland (6,3 milyon ABŞ dolları) ilk beşlikdə qərarlaşmışdır.

2018-ci ilin may ayında da qeyri-neft sektoru üzrə ixracda tomat (pomidor) liderliyini qorumuşdur (54,3 milyon ABŞ dolları). Cari ilin may ayında qeyri-neft sektoru üzrə ixracda kartof (16,3 milyon ABŞ dolları) ikinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 14,1 milyon ABŞ dolları) isə üçüncü olmuşdur.

Həmçinin, 2018-ci ilin ilk 5 ayında xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, emal olunmamış aşqarlanmamış alüminium, elektrik enerjisi, pambıq lifi (daranmaya məruz qalmamış), polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr, qara metallardan neft-qaz buruqlarının qazılması üçün qaynaq yeri olmayan digər nasos kompressor boruları qeyri-neft ixracında önə çıxmışdır.

2018-ci ilin yanvar-may ayları ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2018-Cİ İLİN **YANVAR-MAY AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI İYUN



# 2018-ci ilin **MAY AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



## 2018-Cİ İLİN **YANVAR-MAY AYLARINDA** 2017-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**

**(Dəyəri milyon ABŞ dolları ilə)**



# AZƏRBAYCAN RESPUBLİKASINDAN İXRAC EDİLƏN BƏZİ MALLARIN **DÜNYA BAZARINDA QİYMƏTİ (ABŞ dolları ilə)**

Mənbə: Dünya Bankı

## ALÜMİNİUM (1 TON)

2017-ci ilin may ayı - **1913**

2018-ci ilin may ayı - **2299,7**



## QIZIL (1 UNSİYASI)

2017-ci ilin may ayı - **1246**

2018-ci ilin may ayı - **1303,5**



## ŞƏKƏR (1 TON)

2017-ci ilin may ayı - **360**

2018-ci ilin may ayı - **270**







## PAMBIQ LİFİ (1 TON)

2017-ci ilin may ayı - **1950**

2018-ci ilin may ayı - **2080**



## ÇAY (1 TON)

2017-ci ilin may ayı - **3180**

2018-ci ilin may ayı - **2980**

2018 İXRAC İCMALI İYUN

# 2018-Cİ İLİN **YANVAR-MAY AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

Pomidor



Elektrik enerjisi



Qızıl



İlkin formalı polietilen



Fındıq ləpəsi





Pambıq lifi



Emal olunmamış aşqarlanmamış alüminium



Kartof



Xurma



Digərləri

| | 2018 | 2017 |
|---|---|---|
| Pomidor | 96,8 | 80,3 |
| Elektrik enerjisi | 53,3 | 16,8 |
| Qızıl | 48,4 | 25,3 |
| İlkin formalı polietilen | 42,6 | 41,2 |
| Fındıq ləpəsi | 34,1 | 30,5 |
| Pambıq lifi | 25,5 | 22,3 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 23,8 | 15,4 |
| Kartof | 19,8 | 14,8 |
| Xurma | 19,2 | 7,9 |
| Digərləri | 304 | 302,1 |

# 2018-Cİ İLİN **MAY AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2018 İXRAC İCMALI İYUN

| Mal | 2018 | 2017 |
|---|---|---|
| Pomidor | 54,3 | 46,4 |
| Kartof | 16,3 | 13,5 |
| Qızıl | 14,1 | 4 |
| İlkin formalı polietilen | 7,7 | 7,1 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 6,5 | 3,1 |
| Elektrik enerjisi | 6 | 0,27 |
| Pambıq lifi | 5,3 | 2,3 |
| İlkin formalı digər maddələr | 4,9 | 1,7 |
| Digər nasos kompressor boruları | 4,2 | 2,3 |
| Digərləri | 62,8 | 68,2 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI ŞİRKƏTLƏRİN REYTİNQİ

## 2018-ci ilin **YANVAR-MAY AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

“İxrac İcmalı” tərəfindən 2018-ci ilin yanvar-may aylarında qeyri-neft sektoru üzrə ixracla bağlı rəsmi statistik rəqəmlərin təhlili nəticəsində həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı şirkətlərin reytinqi tərtib olunmuşdur. Hazırlanan qeyri-dövlət ixracatçı subyeklərin ilk onluğunda aşağıdakı şirkətlərin adları vardır: “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "MKT İstehsalat Kommersiya" MMC, "Baku Steel Company" MMC, "Kapitan Fruits" MMC, "Qala meyvə-tərəvəz ixracat idxalat" MMC, “Food Export Şəmkir” MMC, “Azfruittrade" MMC, “Şirin Aqro" QSC, "Sun Food" MMC, "Metalçılar-2" MMC.

Qeyd edək ki, 2018-ci ilin yanvar-aprel ayları üzrə tərtib edilən reytinqlə müqayisədə may ayında siyahıda ciddi dəyişikliklər olmuşdur. Cari ilin may ayında "Kapitan Fruits" MMC, “Food Export Şəmkir” MMC, “Azfruittrade” MMC və “Şirin Aqro” QSC kimi şirkətlər bu siyahıya daxil olmağı bacarmışlar.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən və bir milyon ABŞ dollarından cox ixrac həyata keçirən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-in “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərenerji" ATSC, "Det-al Alüminium" MMC, "Azergold" QSC, "Azərbaycan Hava Yolları" QSC, “CTS-Agro” MMC, "SOCAR Methanol" MMC, "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2018-Cİ İLİN YANVAR-MAY AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2018-Cİ İLİN **YANVAR-MAY AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI İYUN






# 2018-Cİ İLİN **YANVAR-MAY AYLARINDA "AZƏRKOSMOS"** ASC **11 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2018 İXRAC İCMALI İYUN



2018-ci ilin **yanvar-may** aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **19 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **88 faizini** təşkil etmişdir. 2018-ci ilin may ayında isə "Azərkosmos" ASC-nin xidmət ixracının dəyəri **1,6 milyon** ABŞ dolları təşkil etmişdir.

## XİDMƏT İXRACI HƏYATA KEÇİRİLƏN ÖLKƏLƏR:

- Fransa
- Malayziya
- BƏƏ
- Almaniya
- Gürcüstan
- Çin
- Misir
- Türkiyə
- Qırğızıstan
- Birləşmiş Krallıq
- Rusiya
- CAR
- Kipr
- Ukrayna
- Tanzaniya
- Livan
- Tacikistan
- Polşa
- İran





2018-ci ilin **YANVAR-MAY AYLARINDA** Azərbaycana gələn xarici vətəndaşlar **BANK KARTLARI VASİTƏSİ İLƏ**

**513,7** milyon manatlıq əməliyyat aparmışlar

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə xarici vətəndaşların **BANK KARTLARI VASİTƏSİ** ilə apardıqları əməliyyatların dəyəri

**90,1** milyon AZN və ya **21%** **ARTMIŞDIR**

2018-ci ilin yanvar-may ayları ərzində Azərbaycana dünyanın **184** ölkəsindən **1055,6 min** və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə **10,1 faiz** çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatının təhlili göstərir ki, ölkəyə gələnlərin 29,3 faizi Rusiya Federasiyası, 22,0 faizi Gürcüstan, 12,1 faizi İran, 11,3 faizi Türkiyə, 4,0 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,0 faizi Ukrayna, 1,8 faizi İraq, 17,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 17,6 faizi yanvar, 15,8 faizi fevral, 26,2 faizi mart, 20,7 faizi aprel, 19,7 faizi isə may ayında ölkəyə gəlmişdir.

Cari ilin yanvar-may aylarında Körfəz ölkələrindən (İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilmişdir. Ötən ilin yanvar-may ayları ilə müqayisədə ölkəmizə gələn Küveyt vətəndaşlarının sayı 6,0 dəfə, Bəhreyn vətəndaşlarının sayı 2,4 dəfə, Qətər və Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 1,9 dəfə, İraq vətəndaşlarının sayı 1,5 dəfə, Oman vətəndaşlarının sayı 32,4 faiz, Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı 6,8 faiz artmışdır.

2018-ci ilin yanvar-may aylarında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə xərcləmələrində də artım müşahidə edilmişdir. Mərkəzi Bankın məlumatına əsasən cari ilin may ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **107,3 milyon** manat təşkil etmiş və ötən ilin may ayı ilə müqayisədə **16 faiz** artmışdır.

2018-ci ilin yanvar-may ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri isə **513,7 milyon** manat təşkil etmişdir. Beləliklə, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-may ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **90,1 milyon** AZN və ya **21 faiz** artmışdır.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLAR **(milyon AZN)**

## 2016-cı il

Yanvar - **28,2**
Fevral - **36,7**
Mart - **40,6**
Aprel - **34,5**
May - **48,6**

**Cəmi - 188,6**

## 2017-cı il

Yanvar - **86,8**
Fevral - **72,5**
Mart - **91,1**
Aprel - **80,6**
May - **92,6**

**Cəmi - 423,6**

## 2018-cı il

Yanvar - **99,8**
Fevral - **91,1**
Mart - **105,8**
Aprel - **109,7**
May - **107,3**

**Cəmi - 513,7**



3

# AZEXPORT.AZ PORTALINA 2018-Cİ İLİN YANVAR-MAY AYLARINDA 250,2 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Cari ilin **MAY AYINDA** Azexport.az portalına daxil olan **İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ** **27,7** milyon ABŞ dolları təşkil etmişdir

Azexport.az portalı "Made in Azerbaijan" brendinin təbliğinə və qeyri-neft sektoru üzrə ixracın artmasına töhfə verməkdə davam edir. 2018-ci ilin may ayı ərzində Azexport.az portalına **27,7 milyon** ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olmuşdur. Ümumilikdə isə 2017-ci ilin yanvar ayından 2018-ci ilin 31 may tarixinə kimi (17 ay ərzində) Azexport.az portalına dünyanın 95 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 725,2 milyon ABŞ dolları təşkil etmişdir.

2018-ci ilin ilk 5 ayında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (19%), ABŞ (9%), Türkiyə (6,9%), İran (5,5%) və İngiltərə (4,5%) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə aydın olmuşdur ki, cari ilin may ayında ən çox ixrac sifarişi pomidor, pambıq, şərab, alma, bal, buğda kəpəyi, mühərrik yağı, kosmetik vasitələr, konservləşdirilmiş ət, meyvə şirəsi, fındıq, dekorativ güllər, süd məhsulları, xalça, göbələk, qənnadı məhsulları, toyuq əti və yumurtası, qazlı su, mebel dəsti, zəfəran, zeytun yağı, çay və s. mallara daxil olmuşdur.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## **AZEXPORT.AZ** PORTALINA
## DAXİL OLAN İXRAC SİFARİŞLƏRİN DƏYƏRİ **(ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI İYUN

**Son 17 ay ərzindəki sifarişlərin cəmi - 725,2 milyon ABŞ dolları**

AZEXPORT.AZ
2018

**2017-ci il ərzində**

cəmi - **475 milyon**

**2018-ci il üzrə**

YANVAR - **81,5 milyon**

FEVRAL - **37,6 milyon**

MART - **66,5 milyon**

APREL - **36,9 milyon**

MAY - **27,7 milyon**

cəmi - **250,2 milyon**



# 2018-Cİ İLİN MAY AYINDA **AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2018 İXRAC İCMALI İYUN

Pambıq



Pomidor



Alma



Bal



Buğda kəpəyi



Mühərrik yağı



Kosmetik vasitələr



Konservləşdirilmiş ət



Meyvə şirəsi



Fındıq



Dekorativ güllər



Süd məhsulları



Xalça



Göbələk



Qənnadı məhsulları



# 2018-Cİ İLİN **YANVAR-MAY AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ



4

# İXRAC TƏŞVİQİ VERİLƏN MALLARIN SİYAHISI GENİŞLƏNDİRİLMİŞDİR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi Qaydası"nın, "İxrac təşviqi şamil olunacaq qeyri-neft məhsullarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahısı"nın və "Məhsulların növündən asılı olaraq ixrac təşviqinin baza məbləğinə tətbiq olunacaq Əmsallar"ın təsdiq edilməsi haqqında" 2018-ci il 25 iyun tarixli qərarı ilə  ixrac təşviqi alacaq malların siyahısı da genişləndirilmişdir. Bu siyahıya quş yumurtası (məhsulun kodu 0407),  qabığı təmizlənmiş meşə fındığı (məhsulun kodu 0802 22),  digər zeytun yağı və onun fraksiyaları (məhsulun kodu 1509 90), üzüm şərabları istisna olmaqla, digər meyvə çaxırları, o cümlədən nar çaxırı (məhsulun kodu 2206) əlavə edilmişdir.

Quş yumurtası üçün ixrac təşviqi ixrac olunan malın dəyəri üzrə 4,5 faizi, qabığı təmizlənmiş meşə fındığı üçün 3 faiz, digər zeytun yağı və onun fraksiyaları üçün 4,5 faiz, üzüm şərabları istisna olmaqla, digər meyvə çaxırları, o cümlədən nar çaxırı üçün 6 faiz həddində müəyyənləşdirilmişdir.

Cari ilin ilk altı ayında Azərbaycandan ixrac təşviqi şamil edilən qeyri-neft məhsullarına 2,2 milyon manat ixrac təşviqi verilmişdir. Ümumiyyətlə isə, indiyədək sahibkarlara 5,3 milyon manat ixrac təşviqi ödənilmişdir.

Nazirlər Kabinetinin sözügedən qərarına əsasən sahibkarlar ixrac təşviqi üçün "bir pəncərə" prinsipi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi vasitəsilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət edə bilərlər.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanına uyğun olaraq, qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqinin ödənilməsi üçün onlayn müraciət imkanı yaradılmış və müvafiq elektron xidmət istifadəyə verilmişdir. Hazırda ixracatçılar www.dth.azexport.az internet portalı vasitəsi ilə birbaşa və ya vahid ixrac ərizəsindən istifadə etməklə ixrac təşviqini almaq üçün müraciət edə bilərlər.

# 5

# QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏ FƏALİYYƏTƏ BAŞLAMIŞDIR

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 iyun tarixli 146 nömrəli Fərmanına əsasən, Qida Təhlükəsizliyi Agentliyi "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində fəaliyyətə başlamışdır. Qurum fəaliyyəti çərçivəsində qida təhlükəsizliyi sertifikatının, müvafiq olaraq fitosanitar, baytarlıq sertifikatlarının verilməsi xidmətlərini göstərir. Sahibkarlar ixrac etdikləri məhsullar üçün bu sertifikatları da "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən vahid məkan prinsipi əsasında əldə edə bilərlər.

Məlumat üçün bildirək ki, Qida Təhlükəsizliyi Agentliyinin iyulun 1-dən "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində fəaliyyətə başlaması sahibkarlar üçün yeni imkanlar yaradır. Mərkəz tərkibində ixracatçıların əsas üstünlüyü ixrac prosesini özündə ehtiva edən ixrac blokuna məxsus digər dövlət qurumlarının da sertifikat və icazələrini almağın mümkün olmasıdır. Başqa sözlə, sahibkarlar "bir pəncərə" prinsipi əsasında malın mənşə sertifikatının alınması, gömrük bəyannaməsinin doldurulması və s. üstünlüklərdən yararlanacaqlar.

Qeyd edək ki, 2018-ci ilin iyun ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən fiziki və hüquqi şəxslərə 400-dən çox sertifikat verilmişdir. Cari ilin iyun ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə Azərbaycan sahibkarlarına, əsasən, qurğuşun külçə, pomidor, sement, qiymətli metal külçələr, polad borular, xüsusi təyinatlı mexaniki qurğular, polad pəstah, ayaqqabı istehsal edən maşın, toyuq ayaqları, balıq, kərpic, meyvə şirələri, cins şalvar, fındıq, dombalan, bağırsaq, buğda, zeytun ağacı, mineral sular, qarpız, karamel, ölçü aparatı, kivi, sarımsaq və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Türkiyə, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İsveçrə, Qətər, İtaliya, Qazaxıstan, Vyetnam, Malayziya, Almaniya, Serbiya, İran, Yunanıstan, Ukrayna, Çin, Kanada, Hollandiya, Çex Respublikası daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac olunmuşdur.



# 2018-Cİ İLİN YANVAR - İYUN AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları)




**ÜMUMİ - 78,3 mln.$**

# 2018-Cİ İLİN **YANVAR - İYUN AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ** VASİTƏSİLƏ İXRAC EDİLƏN MƏHSULLARIN ÜMUMİ QEYRİ-NEFT SEKTORUNUN **İXRACINDA PAYI**






# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ ƏN ÇOX QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLƏN ÖLKƏLƏRİN SİYAHISI




- RUSİYA
- GÜRCÜSTAN
- BƏƏ
- QAZAXISTAN
- MALAYZİYA
- TÜRKİYƏ
- VYETNAM
- İSVEÇRƏ
- İTALİYA
- QƏTƏR

# 6

# UKRAYNADA AZƏRBAYCAN TİCARƏT EVİ AÇILMIŞDIR

2018-ci ilin 22 iyun tarixində Kiyevdə Azərbaycan Ticarət Evinin açılışı olmuşdur.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış Azərbaycan Ticarət Evinin ümumi sahəsi 300 m²-ə yaxındır.

Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin Ukrayna bazarında daha çox tanıdılması, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsi sahəsində fəaliyyət göstərəcək, Ukraynada satışını təşkil edəcək, bu sahədə əlaqələndirməni həyata keçirəcəkdir. Ticarət Evinin daimi fəaliyyət göstərən sərgisində 30-a yaxın Azərbaycan şirkətinin istehsal etdiyi müxtəlif məhsullar (meyvə şirəsi və kompotlar, mineral sular, zeytun, çay, meyvə və tərəvəz, qənnadı məmulatları, spirtli içkilər, Naftalan yağı, toxuculuq və kosmetika məhsulları və s.) nümayiş olunur. Ümumilikdə, Azərbaycan Ticarət Evində 85 çeşiddə şərab, 26 çeşiddə konyak, 37 çeşiddə çay, 30-dan çox çeşiddə meyvə şirəsi və kompotlar, 150-dən çox çeşiddə digər məhsullar sərgilənir.

Azərbaycan Ticarət Evinin açılış mərasimində, həmçinin, Azərbaycan şərablarının dequstasiyası keçirilmiş, Azərbaycan və Ukrayna incəsənət ustalarının konserti təşkil edilmişdir.

Sonda tədbir iştirakçıları Azərbaycan Ticarət Evi və burada daimi fəaliyyət göstərən Azərbaycan məhsullarının sərgisi ilə tanış olmuşlar.

Qeyd edək ki, Ukrayna ölkəmizin əsas ticarət tərəfdaşlarındandır və 2017-ci ilin nəticələrinə əsasən, Azərbaycanın xarici ticarət dövriyyəsində 6-cı yeri tutmuşdur. Ümumiyyətlə, ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmində müsbət dinamika müşahidə edilir. 2017-ci ildə Azərbaycan və Ukrayna arasında ticarət dövriyyəsi 2,5 dəfə artaraq 810 milyon ABŞ dolları, bu ilin 4 ayında isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 8 faiz artaraq 261,7 milyon ABŞ dolları təşkil etmişdir.







# 7

# İSVEÇRƏYƏ İXRAC MİSSİYASI TƏŞKİL OLUNMUŞDUR

"Made in Azerbaijan" brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən 2018-ci ilin 25-29 iyun tarixlərində İsveçrəyə növbəti ixrac missiyası təşkil olunmuşdur. İxrac missiyasına müsabiqə əsasında seçilmiş fındıq istehsalı sahəsində fəaliyyət göstərən 12 Azərbaycan şirkəti daxil edilmişdir.

İsveçrəyə təşkil olunan ixrac missiyası çərçivəsində Azərbaycanın fındıq istehsalı ilə məşğul olan şirkətləri ilə İsveçrənin aparıcı şirkətləri arasında görüşlər keçirilmişdir.

Bern şəhərində keçirilən görüşlərdə Azərbaycan şirkətlərinin istehsal etdiyi məhsullar barədə məlumat verilmiş, Azərbaycan və İsveçrə şirkətləri arasında əməkdaşlığın genişləndirilməsinə, ixracın artırılmasına dair müzakirələr aparılmışdır.

İsveçrənin "GN-company", "Varistor" və "Delica" şirkətləri ilə aparılan müzakirələr zamanı fındıq ixracına dair ilkin razılaşmalar əldə olunmuşdur. Bu məqsədlə İsveçrə şirkətlərinin nümayəndələrinin Azərbaycana səfəri və yerli fındıq istehsalçıları ilə görüşlərinin təşkili barədə razılığa gəlinmişdir.

Həmçinin, ixrac missiyası İsveçrənin aparıcı fındıq tədarükü və satışı müəssisələrində olmuşdur.



Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.



iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 33 18
info@ereforms.org